**2021-ci ilin başa çatmaqda olan və son dövrün ən isti yayı kimi yaddaşımızda qalacaq turizm mövsümü bir neçə cəhətdən əlamətdar oldu. Birinci amil şanlı qələbədən sonrakı ilk yayımız və ilk istirahət imkanlarımızdır. İkinci amil isə pandemiyanın təzyiq və təhdidlərlə dolu qadağalarına baxmayaraq, bu il Azərbaycanın bütün guşələrində az da olsa, turizmin özünəməxsus göstəricilərimüşahidə olunur. Ötən yay vəziyyət daha ağır idi.**

# Qələbə sevinci bu yay Qaxın təmtərağını xeyli artırıb



Otuz il idi ki, istənilən azərbaycanlı istirahət etmək üçün harasa üz tutanda ürəyindən bir sızıltı keçirdi ki, bəs biz Şuşaya, Ağdama, Kəlbəcərə, Laçına nə zaman gedəcəyik? Otuz il idi ki, həmin sual hamımızın varlığını özünə əsir etmişdi. Nəhayət, ötən payız həmin sualın da cavabını tapdıq. Ölkəmizin ərazi bütövlüyü bərpa edildi və işğaldan azad



edilmiş torpaqlarımız qaniçən düşmənin "səpdiyi" minalardan təmizlənənəndən sonra nəinki məcburi köçkünlərimiz öz ata-baba yurdlarına qayıdacaq, həm də yurdumuzun bu dilbər guşələrində istirahət etmək istəyən vətəndaşlarımız və əcnəbi turistlər üçün geniş imkanlar yaranacaq.

Hələlik isə yerli turizmin imkanlarından bəhrələnmək istəyən soydaşlarımız Quba–Xaçmaz, Lənkəran–Masallı və Şəki–Zaqatala bölgələrinə üz tuturlar. Şəki–Zaqatala bögəsinin əsas turizm ünvanlarından biri isə Qax rayonudur. Yadımdadır, bu rayondakı açılış mərasimlərindən birində iştirak edən Prezident İlham Əliyev demişdi ki, Qaxın çox böyük turizm potensialı vardır : "Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir".

Rayondakı son vəziyyətlə tanış olarkən inanırsan ki, cənab Prezidentin "gələcəkdə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir" – deyimi artıq günün reallığıdır. Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyevlə söhbətimizdə də bu məsələ əsas mövzulardan biri oldu. Burada doğulub böyümüş rayon rəhbəri Qax haqqında danışanda onun öz yurduna olan sevgi və məhəbbətinin böyüklüyünə heyran qalmaya bilmirsən. Əvvəllər də dəfələrlə qeyd etdiyim kimi, "bu rayonu Musa müəllimin Qaxa olan sevgisi inkişaf etdirir" – deyənlərlə o, razılaşmır: "Rayonumuzu möhtərəm Prezidentimiz İlham Əliyevin Qaxa və qaxlılara olan rəğbəti və sevgisi inkişaf etdirir", – deyir.

Həmsöhbətim dedi ki, hansısa rayonun turizm mərkəzinə çevrilməsi üçün, ilk növbədə, həmin bölgənin hərtərəfli inkişafına nail olmaq lazımdır. Əgər rayonun yolları müasir tələblərə cavab vermirsə, ən yeni istirahət mərkəzləri və otellər də turistləri cəlb edə bilməz. Rayonda içməli su təminatı, elektrik enerjisi və təbii qaz verilməsi, yaxud rabitə xidməti lazım olan səviyyədə deyilsə, çəkdiyin ən yeni və rahat yol da turistləri cəlb edə bilməz. Amma bu, hələ hamısı deyil. Rayona çoxlu turist cəlb etmək üçün turizm obyektlərində çalışan personalın səviyyəsi və yerli sakinlərin qonaqpərvərliyi də mühüm rol oynayır. Biz bütün bunların hamısına kompleks şəkildə yanaşmışıq və istənilən nəticəyə nail olmuşuq. Başqa cür ola da bilməz. Çünki Tanrı bizə çox gözəl təbiət bəxş edib, xalqımız tarix boyu möhtəşəm abidələr yaradıb və yüz illərdən bəri möhtəşəm Qax mətbəxi formalaşdırılıb. Ona görə də biz bütün addımları atırıq ki, Qaxın mühüm turizm mərkəzlərindən biri olduğunu dünyanın hər yerində bilsinlər.

Rayon rəhbəri haqlıdır. Bu gün bir çox ölkələr var ki, heç bir təbii sərvətə malik olmasalar da, büdcəni turizm hesabına formalaşdıra bilirlər. Xatırladaq ki, Prezident İlham Əliyev də turizmin inkişaf etdirilməsinə daim diqqət göstərən dövlət başçılarından biridir. Məhz onun rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı başlıca prioritetlərdən olmaqla, qarşıya əsas məqsəd kimi qoyulub. Bu baxımdan ölkədə turizmin inkişafına da xüsusi diqqət ayrılır. Azərbaycanda otel biznesinin dünya standartları səviyyəsində yenidən qurulması, bölgələrimizdə bir-birindən gözəl və müasir mehmanxana komplekslərinin yaradılması, qonaqlara yüksək səviyyədə xidmət göstərilməsinin təmin edilməsi, çox sayda turistlərin qəbulu üçün silsilə tədbirlərin reallaşdırılması turizm sektorunun



inkişafında mühüm rol oynayıb. Bütün bunlar Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da zəmin yaradır.

Rayon rəhbərinin dediyi "bütün addımları atırıq" ifadəsinin təsdiqini lap bu günlərdə reallaşdırılan bir tədbirdə də gördük. Bəri başdan deyim ki, inkişaf etmiş ölkələrdə şəhər, qəsəbə və ya kəndə içməli sudan əlavə, texniki su da verilir ki, bu da içməli sudan bağbağatın suvarılması və ya başqa məqsədlərlə istifadə edilməsinin qarşısını almaq məqsədi daşıyır. Sevdirici haldır ki, bu layihələrdən biri də Qaxda reallaşdırılıb. Rayon icra hakimiyyətində məlumat verdilər ki, Azərbaycan hökuməti, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və yerli icma arasında əməkdaşlıq çərçivəsində Qax rayonunun Qaradolaq kəndində "Texniki su təminatının yaxşılaşdırılması" layihəsinin icrası uğurla başa çatıb. USAID-in ölkəmizdə həyata keçirdiyi "Sosial-iqtisadi inkişaf fəaliyyəti" proqramı çərçivəsində kəndə yeni su xətti çəkilib, 40-dək ailənin texniki su ilə təminatı daha da yaxşılaşdırılıb. Layihənin icrasının başa çatması münasibətilə avqustun 4-də Qaradolaq kəndində mərasim keçirilib. Tədbirdə ABŞ-ın ölkəmizdəki səfiri Li Litzenberqer, rayon rəhbərliyi, USAID-in nümayəndələri və kənd icmasının üzvləri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı həmin tədbirdə çıxış edərkən də ölkəmizdə, eləcə də rayonda həyata keçirilən quruculuq işlərindən, yeni infrastruktur layihələrindən danışıb. Məlumat verib ki, müxtəlif təşkilatların və yerli icmaların birgə tərəfdaşlığı çərçivəsində indiyədək rayonda sosial obyektlərin tikintisi, təmiri, yol infrastrukturu ilə bağlı 46 layihə həyata keçirilib. O cümlədən, SEDA proqramı çərçivəsində Qax rayonunda 8 layihənin icrasına başlanılıb və onlardan 6-sı artıq yekunlaşıb.

Xatırladaq ki, mövcud subartezian quyusundan kəndə müxtəlif diametrli polietilen borularla 3690 metr uzunluğunda boru xətti çəkilib, kəndin içərisində 2 ədəd 10 tonluq su çəni qoyulub. Layihədən kəndin 200 nəfərədək sakini yararlanacaq. Öyrəndik ki, iyulun 13-də də müvafiq tərəflərin iştirak etdiyi layihə çərçivəsində İlisu və Qapıçay kəndlərində də "Texniki su təminatı" layihəsinin icrası nəticəsində əhalinin texniki su ilə təminatı yaxşılaşdırılıb.

Qaxın turizm ünvanlarından biri də təbii ki, tarixi abidələrdir. O tarixi abidələr ki, bədnam qonşularımız Azərbaycan, Gürcüstan, Türkiyə və İrandakı həmin qəbildən olan bütün abidələri "erməniləşdirməyə" çalışırlar. Azərbaycan tərəfi ermənilərə lazımi cavabı verməklə yanaşı, öz ərazisindəki bütün abidələri dünya alimlərinin üzünə açıq elan edir ki, gəlin, baxın, oxuyun, öyrənin görək, bu abidələr alban abidəsidir, yoxsa erməni? Avqustun ilk günlərində – Qaxda olduğumuz zaman da rayonda bu missiyanı yerinə yetirən əcnəbilərin monastır kompleksi üzərində elmi araşdırmalar apardıqları barədə məlumat aldıq.

Qeyd edildi ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəal əməkdaşlıq etdiyi Milan Politexnik Universitetində təhsil alan 3 xarici tələbə (bir tələbə Rusiyadan, ikisi isə Türkiyədən) son tədris ili ərzində Azərbaycanın Qax rayonunda yerləşən "Yeddi kilsə"monastır kompleksinin tədqiqi və qorunmasına həsr edilmiş elmi araşdırmalar üzərində



işləyirlər. Azərbaycan və İtaliya ali məktəblərinin əməkdaşlığı çərçivəsində gerçəkləşən bu layihədə çalışan tələbələrə hər iki tərəfdən alimlər rəhbərlik edirlər. Yəni, Qax təkcə turistlərin, istirahətə gələnlərin deyil, həm də dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərini olduğu kimi çatdırmaq istəyən gənc alimlərin də maraqla üz tutduğu ünvana çevrilib.

Ancaq bu gün Qaxda haqqında söz açılmalı məsələlər təkcə turizmlə bitmir. Musa müəllim dedi ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası üçün mühüm addımlar atılır, dövlət başçımızın ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məsələsi daim diqqət mərkəzindədir, əhaliyə göstərilən xidmətin səviyyəsi ildən-ilə yaxşılaşdırılır, təhsil, səhiyyə, mədəniyyət və idman ocaqlarının maddi-texniki bazasının yeniləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Müsahibim söhbətini həmin məsələlərdən biri haqqında olan faktlarla davam etdirdi: Məsələn, cari mövsümdə rayonda yaş barama istehsalının 22 tona çatdırılması qarşıya məqsəd qoyulmuşdu. Kümçülər isə rayonun damazlıq ipəkçilik stansiyasındakı qəbul məntəqəsinə həmin rəqəmdən xeyli artıq yaş barama təhvil veriblər. Xatırladaq ki, bu il barama yetişdirmək üçün rayonda 324 kümçü ilə müqavilə bağlanılmış, onlara 550 qutu, yəni, 10 kiloqram 450 qram ipəkqurdu paylanılmışdı. Ləkit kəndindən Qiyas Aslanov cari mövsümdə qəbul məntəqəsinə rayon üzrə hamıdan çox – 302 kiloqram yaş barama təhvil verib. O, bu il 80 qram ipəkqurdunun yemlənməsi ilə məşğul olub. Zəyəm kəndindən Xəyyam Ramazanov cari mövsümdə 294 kiloqram, Əmircan kəndindən Hümmət Mirzəbəyov isə 275 kiloqram yaş barama istehsal ediblər.

Qaxda ölkənin ictimai-siyasi həyatındakı proseslərin də mühüm əks-sədasını eşidir və görürük. Məsələn, iyunun 26-da rayonda Silahlı Qüvvələr Günü münasibətilə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamına əsasən, təltif edilən şəhid və qazilərimizə orden və medalların təqdim olunması mərasimi keçirilirdi. Həmin tədbirdən, az qala, iki aya yaxın vaxt keçməsinə baxmayaraq, RİH başçısının oradakı çıxışı hələ də qulağımda səslənir. Musa müəllim şəhid ailələrinin ağrı-acısına, orden və medallara layiq görülmüş hərbçilərimizin sevincinə elə şərik olurdu ki, sanki həmin adamların hamısı onun öz əzizləri idi.

... Əməkdar jurnalist, qocaman həmkarımız, bu rayonda doğulub böyümüş, əlli ilə yaxın paytaxtda müxtəlif vəzifələrdə çalışmış, Qaxı sevməyin və onu vəsf etməyin ən mükəmməl nümunələrini yaratmış Vaqif Musayevlə "İçəri bazar"da görüşdük. Vaqif müəllim bəlkə də yüz dəfələrlə gördüyü, baxdığı tarixi məkanları sanki ilk dəfə görürmüş kimi, heyranlıqla izləyirdi. Xeyli söhbət etdik. O uzun söhbətin bir cümləsi heç zaman yadımdan çıxmayacaq: "Nə yaxşı ki, Azərbaycan xəritəsində Qax adlı ünvan da var, yoxsa, yaşlı adamlar çox tez qocalardılar!"

Elə bu sətirləri də həmin arqumentlə tamamlamaq istəyirəm. Çünki Qaxın əsrarəngiz təbiəti, dağların, meşələrin sonsuz gözəlliyi, tarixi abidələrin ibrət dərsləri, yağışın hər damlası, "nəğməkar quşlar"ın cəh-cəhi və insanların halal səmimiyyətlə yoğrulmuş qonaqpərvərliyi, sözün həqiqi mənasında, "uzunömürlük dərmanı"dır. Qax – ömrünün daha uzun olmasını arzulayanları daim gözləyir və əzizləyir.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**